International Journal of Social and Humanities Sciences Research

JSHSR

Uluslararası Sosyal ve Beşeri Bilimler Araştırma Dergisi
Uluslararası Hakemli Dergi- International Refereed Journal
ISSN: 2459-1149

Received-Makale Geliş Tarihi 01.12.2025
Published-Yayınlanma Tarihi 31.01.2026
Volume-Cilt (Issue-Sayı), ss/pp 13 (127),80-84

*Review Article / İnceleme Makalesi*
10.5281/zenodo.18445669

**Dr. Öğr. Üyesi Könül Gulusoy**
https://orcid.org/0000-0002-7519-145X
Kafkas Üniversitesi, Fen-Edebiyat Fakültesi, Kars / TÜRKİYE
ROR Id: https://ror.org/04v302n28

# Hamlet İsaxanlının "*Mənim Qarabağım və ya Qarabağ Düyünü*" Kitabı: Qarabağ Münaqişəsinin Obyektiv və Tarixi-Xronoloji Təhlili[1]

# "My Karabakh, or the Karabakh Knot" by Hamlet Isakhanli: An Objective and Historical-Chronological Analysis of the Karabakh Conflict

## ÖZET

Benzersiz doğası, zengin maddi ve manevi mirasıyla öne çıkan Karabağ bölgesi, aynı zamanda coğrafi açıdan jeopolitik bir üstünlüğe sahiptir. Karabağ, Türk (Osmanlı) topraklarıyla da sınır komşusu olmuş; bu özelliğiyle bölgede hâkim güç olmak isteyen büyük devletlerin, özellikle de Rusya'nın dikkatini çekmiştir. Rusya (Çarlık Rusyası), XVIII. yüzyıldan itibaren Azerbaycan'daki nüfuzunu artırarak hanlıkları egemenliği altına almış; XIX. yüzyılda ise uyguladığı iskân politikalarıyla Karabağ bölgesine Ermenilerin yerleştirilmesine zemin hazırlamıştır. Bu politika ve devamında Ermenilerin toprak iddiaları, kanlı çatışmalar ve savaşlarla sonuçlanmıştır. 1990–1994 yılları arasında yaşanan Birinci Karabağ Savaşı'nda Ermenistan, Azerbaycan topraklarının yaklaşık yüzde 20'sini işgal etmiş ve bir milyondan fazla insanı yurtlarından göçe zorlamıştır. 2020 yılında başlayan ve 44 gün süren İkinci Karabağ Savaşı'nda ise Azerbaycan işgal altındaki topraklarını kurtarmış; taraflar arasında 10 Kasım tarihinde ateşkes anlaşması imzalanmıştır. Aradan beş yıldan fazla zaman geçmesine rağmen, Ermenistan ile Azerbaycan arasında kalıcı barış henüz sağlanamamıştır. Bu durum, iki ülke arasında sınırların hâlâ belirlenmediğini ve sorunun tam anlamıyla çözüme kavuşmadığını göstermektedir.

Bu süreçte Azerbaycan'da Karabağ Savaşı'nı konu alan çok sayıda eser yayımlanmış; bu çalışmalarda çatışma ve çözüm yolları ele alınmıştır. Azerbaycan'ın tanınmış bilim ve kültür insanlarından, Hazar Üniversitesi'nin kurucu rektörü Hamlet İsaxanlı'nın 2022 yılında yayımlanan *Benim Karabağ'ım veya Karabağ Düğümü* adlı kitabı da Karabağ Savaşı'na adanmış eserlerden biridir. Eser, Karabağ meselesini geniş kapsamlı tarihsel araştırmalara dayalı olarak ele almasıyla öne çıkmaktadır. Yazar, kişisel anılarını da metne dâhil ederek eserin okunabilirliğini artırmıştır. Bu çalışmanın amacı, *Benim Karabağ'ım veya Karabağ Düğümü* adlı eseri kapsamlı biçimde analiz ederek yazarın çatışmanın çözümüne ilişkin görüşlerini ortaya koymak ve eserin önemini bilimsel bir çerçevede değerlendirmektir.

**Anahtar Kelimeler:** Hamlet İsaxanlı, Karabağ, Benim Karabağ'ım, Karabağ Düğümü

## ABSTRACT

Distinguished by its unique nature and rich tangible and intangible heritage, the Karabakh region also possesses significant geopolitical advantages due to its geographical position. Historically, the region shared borders with Turkish (Ottoman) territories, a fact that attracted the attention of major powers—particularly Russia—seeking to establish dominance in the area. Beginning in the 18th century, Russia (the Russian Empire) expanded its influence over Azerbaijan by subjugating the khanates, and in the 19th century, through its resettlement policy, facilitated the settlement of Armenians in the Karabakh region. This policy, followed by Armenian territorial claims, resulted in violent clashes and wars. During the First Karabakh War (1990–1994), Armenia occupied 20 percent of Azerbaijan's territory and displaced more than one million people from their homeland. In the 44-day Second Karabakh War, which began in 2020, Azerbaijan liberated its occupied territories, and on 10 November a ceasefire agreement was signed between the parties. Although more than five years have passed, a lasting peace between Armenia and Azerbaijan has not yet been achieved, indicating that the borders between the two countries remain undefined and that the conflict has not been fully resolved.

During this period, numerous books on the Karabakh conflict have been published in Azerbaijan, analyzing the dispute and possible paths toward its resolution. One such work is the book *"My Karabakh or the Karabakh Knot"* (2022) by Hamlet Isakhanli, a prominent Azerbaijani scholar and cultural figure and the founding rector of Khazar University. The book is distinguished by its comprehensive historical analysis of the Karabakh issue. The author also enriches the narrative by incorporating his personal memories, thereby enhancing the readability of the work. The aim of this study is to conduct an extensive analysis of *"My Karabakh or the Karabakh Knot"*, to elucidate the author's perspectives on resolving the conflict, and to present a scholarly interpretation of the significance of the work.

**Keywords:** Hamlet Isakhanli, Karabakh, My Karabakh, Karabakh Knot

[1] Məqalə 7 noyabr 2025-ci il tarixində Kafkas Universitetində Hamlet İsaxanlının "Mənim Qarabağım və ya Qarabağ Düyünü" kitabının təqdimatı zamanı edilən çıxışdan hazırlanmışdır.

## 1. GİRİŞ

Hamlet İsaxanlının müəllifi olduğu "Mənim Qarabağım və ya Qarabağ Düyünü" kitabı 2022-ci ildə Xəzər Universitetinin mətbəəsində nəşr edilmiş və 242 səhifədən ibarətdir. Kitabda tarix, siyasi tarix, siyasət, azərbaycanlıların və ermənilərin yaşadığı ərazilərdən, o cümlədən bu xalqların ədəbiyyatından və mədəniyyətindən bəhs edilir. Yazarın kitabı yazmaqda başlıca məqsədi tarixən azərbaycanlılar və ermənilər arasında yaranan qonşuluq və dostluq münasibətləri, eləcə də silahlı qarşıdurmalar və müharibələrə həm tarixi qaynaqlar, həm də şəxsi təcrübələri ilə aydınlıq gətirməkdir. Kitabın adından da bəlli olduğu kimi, əsərin baxış bucağı Azərbaycanın Qarabağ bölgəsidir. Əsər giriş, 39 fəsil, ədəbiyyat siyahısı və indeksdən ibarətdir.

## 2. ƏSAS HİSSƏ

"Mənim Qarabağım və ya Qarabağ Düyünü" kitabını Giriş hissəsi bu kövrək misralarla başlamaqdadır: "Hər azərbaycanlının öz Qarabağnaməsi var. ... hər azəbaycanlının bir Qarabağ sevgisi və bir Qarabağ ağrısı var." (İsaxanlı, 2022, s.9) Kitabda yer alan 39 fəsli təxminən 6 qrupda birləşdirmək mümkündür.

### 2.1. Birinci Qrup: Qarabağın Ruhu və Mənəvi Dəyəri

*Nəğmələr gülüstanı, Şuşa oxuyur.*

*Qarabağdan güc alanlar, Qarabağ: sənət, canlı aləm, məktəb.*

*Nərmənazik bayatı.*

*Ürəkdə qalan arzu, Ermənistan dağlarında.*

Hamlet İsaxanlı adı keçən bu fəsillərdə Qarabağlı şair yazıçı və sənət adamlarınıdan bəhs edərək, Qarabağın Azərabyacanın tarix və mədəniyyətindəki roluna diqqət çəkir. Qarabağın, özəlliklə Şuşanın bir ərazi vahidindən daha çox Azərbaycanın maddi-mənəvi irsini təmin edən zəngin sənət beşiyi olduğunu qeyd edir. Azərbaycanlılar üçün Qarabağın, Şuşanın əhəmiyyətini "Azərbaycanlılar üçün Şuşa nədir? Almanlar üçün Vienna, İtalyanlar üçün Milan ya Florence, Ruslar üçün Sankt-Peterburq, Yaponlar üçün Kyoto, İsraillilər və Fələstinlilər üçün Yerusəlim (Qüds, Jerusalem) necə əzizsə, Azərbaycanlılar üçün Şuşa elə əzizdir." (İsaxanlı, 2022, s.23) şəklində izah edir. İsaxanlı Qarabağ və Şuşanı görmədən Birinci Qarabağ müharibəsi başlayır və yazıçının bu arzusu 30 illik həsrətlə əvəzlənir.

### 2.2. İkinci Qrup: Azərbaycan–Erməni Mədəni Əlaqələri və Ədəbiyyatda Obrazlar

*Ermənistan dağlarında*

*Azərbaycan ədəbiyyatında ermənilər.  Folklor və 19-cu əsr*

*Azərbaycan ədəbiyyatında ermənilər. 20-ci əsr*

*Çar dövrü erməni qəzetləri Azərbaycan türkləri haqqında 19-cu əsr*

*Çar dövrü erməni qəzetləri Azərbaycan türkləri haqqında 20-ci əsr*

*Çar dövrü erməni qəzetlərində Ü. Hacıbəyovun opera ve operettaları*

*Erməni əsilli sənətkarlar və Azərbaycan.  18-19-cu əsrlər*

*Erməni əsilli sənətkarlar və Azərbaycan. 20-ci əsr*

*Aleksandr Şirvanzadənin dərsinə qulaq asaq*

*Avetik İsaakyanın "Gündəliklər"i*

Müəllif yay aylarında ailəsi ilə birlikdə Lori bölgəsində yerləşən yaylaqlara köçmüş, ömrünün 40 yayını (1987-ci ilə qədər) İlməzli, Qaraisəli, Novoselsovo, Dolama yolu, Sarı bulaq kimi səfalı yerlərdə keçirmiş, Türk sənət musiqisi əsərlərindən "Yar saçların lüle-lüle" şərqisini də ilk dəfə burada erməni sənətçilərdən dinləmişdir. Yazıçı XIX-XX əsr Azərbaycan ədəbi nümunələrinə əsaslanaraq nasirlərin əsərlərində erməniləri yeni tipli məktəblər açma, jurnal, qəzet dərc etmə, elmə və mədəniyyətə önəm vermə baxımından azərbaycanlılara örnək göstərdiyini qeyd etmişdir. "Mən hansısa əsərində erməni və ya gürcü xalqına düşmən mövqeydə dayanan tanınmış Azərbaycan şair və yazıçısı tanımıram." (İsaxanlı, 2022, s. 51) Kitabda həmçinin ermənilərin Azərbaycan ədəbiyyatı, musiqi və teatr sahəsindəki fəaliyyətləri geniş bir aspektdə ələ alınmış, İsaxanlı bu çalışmaları qaynaqlara əsaslanaraq sadalamışdır. Bunlardan ikisini vurgulamaq yerinə düşər: Üzeyir Hacıbəylinin "Arşın Mal Alan" əsəri Tiflisli erməni aktyor Sertak Magalyan tərəfindən erməni dilinə çevrilmiş, fəqli ölkələrdə 1915-1921-ci illərdə 800 dəfə səhnələnmişdir. "Erməni əsilli tarixçi və

ədəbiyyatçı Mirzə Yusif Nersesov və ya Mirzə Yusif Qarabaği 1856-cı ildə Teymurxan-Şurada (Buynaksk, Dağıstan) M.P. Vaqif və digər Azərbaycan şairlərinin şeirlərindən ibarət Məcmueyi-Vaqif və müasirani-digər adlı kitab dərc etdirdi. Kitabın canı Vaqifin 70-ə yaxın şeirindən ibarətdir; bu, Vaqif şeirlərinin ilk nəşri idi. Sağ ol, Mirzə Yusif!" (İsaxanlı, 2022, s.66,74)

XIX-XX əsr erməni qəzetlərində (Mşak, Daraz, Qordz, Surhandağ və sair) azərbaycanlıların təhsil səviyyəsi, kitabxana və məktəbdarlıq fəaliyyətləri, elm, təhsil və mədəniyyət sahəsində əldə etdikləri uğurlar heyranlıq və təəccüb hissləri ilə dilə gətirilmişdir. Qafqazda Azərbaycan dilinin üstün mövqedə olduğu, şeir ve musiqi dili olduğu Sayat Nova, Xaçatur Abovyan timsalında verilmiştir. XX əsr eyni zamanda azərbaycanlılar ilə ermənilər arasında yaşanan ilk silahlı qarşıdurmaların baş verdiyi dövrdür. Bu dövrdən başlayaraq erməni ziyalıları arasında iki fərqli qrupun ortaya çıxdığını görmək mümkündür. Birinci qrup ziyalılar (Hovanes Tumanyan, Aleksandr Şirvanzadə, Marietta Şaginyan və d.) ermənilərin köç edərək Qafqaza gəldiyini və bu səbəpdən əsilsiz torpaq iddialarından əl çəkərək yerli xalqlarla sülh içində yaşamalarını tövsiyə etmişdir. İkinci qrup ziyalılar (Avetik İsaakyan, Gamar Katipa, Zori Balayan və d.) isə "Böyük Ermənistan" xəyalı ilə yaşayan, əsərlərində dərin nifrət və kin söyləmlərinə yer verən, qonşu xalqları (xüsusilə, azərbaycanlıları) alçaldaraq özlərini Qafqazın ən qədim sakinləri adlandıran ifrat şovinistlərdir. A. İsaakyanın "Gündəliklər" əsərindən verilən sitatlar da bunu göstərir: "Heç olmasa, bir Türkü öldürən, yaxud öldürəcək hər bir erməniyə tanrı yar olur.", "Türklər şərəf və vicdanı olmayan, ganiçən, vəhşi barbarlardır, insanabənzər adamyeyənlərdir." (İsaxanlı, 2022, s.86)

### 2.3. Üçüncü və Dördüncü Qrup: Tarixi Araşdırmalar: Köklər, Köçlər, Münaqişələr

*Gözəl və təhlükəli tarix*

*Qafqaz və Azərbaycan haqqında*

*Azərbaycan, türklər, dil və dövlətçilik*

*Erməni tarixi və tarixçiliyi*

*Münaqişəli Alban tarixi*

*Azərbaycan xanlıqları və Rusiya*

*Qarabağ xanlığı və Rusiyanın erməni siyasəti*

*Köçlər və etnik dəyişmələr*

*"Erməni məsələsi"*

*1905-1906 erməni-müsəlman davası*

*Müstəqillik, qırğınlar və ərazi davası. 1917- 1921*

*Daşnak liderindən böyük dərs*

*Erməni məsələsinin uzantısı – terror*

*Sovet dövründə Dağlıq Qarabağ*

*Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi və 1-ci Qarabağ savaşı*

Kitabın böyük bir qismi (səhifə 87-dən- 178-ə qədər) tarixi araştırmalara həsr edilmiş, qədim və yaxın tarixin yer aldığı fəsillərdə yazar öncə tarix məfhumu üzərində durmuşdur. "Tarixçilərin kollektiv yaddaşın memarı…" (İsaxanlı, 2022, s.89) olduğunu qeyd edərək, araştırmacıların keçmişdə baş verən hadisələri bəzən olduğu kimi deyil, məram və məqsədinə uyğun bir şəkildə açıqladıqlarını göstərmişdir. Azərbaycan türklərinin soy kökünün türklərin Orta Asiyadan qərbə- Avropaya doğru axın etmələri, Qafqazda məskunlaşmaları, xalqımızın tarixin müxtəlif dönəmlərində türkmən, türk, Qafqaz tatarları olaraq adlanmaları ardıcıllığı ilə açıqlanmışdır. Müəllif tarixi sənədlərə dayanaraq sübut edir ki, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər kimi böyük dövlətlər quran Azərbaycan türkləri 1000 ilə yaxındır ki Azərbaycan, İran və ətraf coğrafiyalarda məskunlaşmış, Qafqazda mədəni və siyasi gücə sahib ən böyük xalq olmuşdur. Erməni kimliyini də obyektiv bir şəkildə ələ alan yazıçı erməni rus və qərb tarixçilərinin əsərlərinə əsaslanaraq ermənilərin əcdadlarının Qərbdən Şərqə doğru hərəkət edərək öncə Van gölü və Qars ətrafında, daha sonra isə Kür və Araz ovalığına yerləşdiklərini göstərmişdir. Ermənilərin orta əsrlərdən başlayaraq bu torpaqlarda əsasən az saylı xalq olaraq yaşadığını yazmışdır. "İ. M. Dyakonov da aparıcı Qərb mütəxəssisləri kimi ermənilərin Qafqaza qərbdən gəldiyini demiş, onların əzəldən Qafqazda yaşadıqlarını sübutsuz, təhrif edilmiş uydurulmuş tarix adlandırmışdır." (İsaxanlı, 2022, s. 105) Osmanlı zamanında "Milleti Sadika"

(sadiq millət) adlanan ermənilərin Rusiya və Qərb dövlətlərinin təhriki ilə təxribatlar törədərək dövləti parçalamaq niyyətləri arxiv sənədləri əsasında göstərilmişdir. Eyni zamanda Rusların Qafqaza hərbi səfərləri, Azərbaycan xanlıqlarını öz idarəsi altına alması və İran üzərindəki qələbəsindən (Türkmənçay müqaviləsi) sonra Asiyada bir xristiyan dövləti qurmaq məqsədi ilə ermənilərin Qarabağ və Naxçıvan ərazilərinə köçürülməsi də yenə tarixin işığında aydınlıq qazanmışdır. “1828-ci il martın 21-də İmperator 1-ci Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqları ərazisi Erməni vilayəti (Армянская область) adı aldı.” (İsaxanlı, 2022, s. 124).

XIX əsrin sonu erməni milliyətçilərindən ibarət Hnçak, Hunçak, Daşnaksutun partiyaları quruldu, Osmanlı və Azərbaycan bölgəsində terror aktlari törədilərək dövlətə və mülki əhaliyə böyük ziyan vuruldu. Ermənilərin torpaq iddiları Azərbaycan Demokratik Cumhuriyyəti dönəmində daha da kəskinləşmiş, 1918-ci ildə S. Şaumyanın başçılığı altında olan bolşevik daşnak ordusu Bakı, Şamaxı, Qarabağ, Zəngəzur və bir çox bölgələrdə “yalnız azərbaycanlı olmaq əlamətini əsas götürüb… dəhşətli qırğınlar törətdilər.” (İsaxanlı, 2022, s.140-141) Sovetlər dönəmində ermənilər rusların dəstəyi ilə azərbaycanlı əhalini zorla Qarabağdan Kür Araz ovalığına köçürmüş, boşaldılan ərazilərə xaricdən gələn erməniləri yerləşdirərək Azərbaycan toponimlərini erməni adları ilə əvəz etmişlər. Moskva və Qars muqavilələri ilə bölgədə nisbi sakitlik əldə edilsə də, erməni terror təşkilatları (Daşnaksutun, ASALA) müxtəlif ölkələrdə türk və azərbaycanlı siyasi xadimləri qətl yetirmişlər. 1980-ci illərdə Qorbaçevin qətiyyətsiz davranışları Birinci Dağlıq Qarabağ müharibəsinə səbəb oldu, unutdurulan və unudulan tarix 20 yanvar, Xocalı soyqrımı kimi ağır faciələrlə nəticələndi. Keçmiş Ermənistan prezidenti Serj Sarqsyanın Xocalı faciəsi haqqındakı fikirləri də ermənilərin iç üzünü göstərirdi: “Xocalıya qədər Azərbaycan tərəfi elə bilirdi ki, bizimlə zarafat etmək olar. Onlar elə düşünürdülər ki, ermənilər mülki əhaliyə qarşı əl qaldıracaq insanlar deyillər. Biz bu stereotipə son qoyduq.” (İsaxanlı, 2022, s. 177)

### 2.4. Beşinci Qrup: Birinci Qarabağ Müharibəsi Sonrakı Dövr

*1-ci Qarabağ Savaşı sonrası ermənilər və azərbaycanlılar*

*Ter-Petrosyanın Hərb ya Sülh düşüncələri*

*Key West, Harvard və... mən*

*Azərbaycanlıların Yerevan səfəri*

*“Yazıq Balayan”*

Ermənilər Azərbaycan torpaqlarinin beşdə birini işğal etsələr də, Ermənistan dövlətinin inkişafı Dağlıq Qarabağ ermənilərinə status verilməsi məsələsinin kölgəsində qaldı, Azərbaycan isə ulu öndər Heydər Əliyevin başçılığında atəşkəsə nail oldu, neft-qaz hasilatını gücləndirərək, sərhədyanı dövlətlər ilə münasibətlərini normalaşdırdı. Gürcüstan, İran, Türkiyə və Rusiya ilə muxtəlif sahələrdə əməkdaşlıq etdi. Prezident İlham Əliyev cənabları isə iqtisadiyyatın güclənməsinə təakan verərək, hərbi qüdrətin artmasına nail oldu. Ölkədə geniş miqyaslı quruculuq işləri aparıldı. Ermənilər isə müharibəni deyil, münaqişəni qazandıqlarını unudaraq işğal olmuş əraziləri “Dağlıq Qarabağ Respublikası” elan etdi. Ermənistan prezidenti Ter-Petrosyan 1997-ci ildə yazdığı “Savaş ya sülh? Düşünmə zamanı gəldi” məqaləsində Dağlıq Qarabağ probleminin qarşılıqlı güzəşt sayəsində həll oluna biləcəyini vurğulasa da, ermənilər Böyük Ermənistan xəyalına qapılaraq ərazi iddialarını davam etdirdilər. Hamlet İsaxanlı 2001-ci ildə Harvard Universitetində keçirilən “Dağlıq Qarabağ Danışıqları: Buradan hara gedirik?” mövzusunda panel müzakirədə Azərbaycan dövlətini təmsil etmiş, hər cür provakativ davranışlara rəğmən sülhün Azərbaycanın ərazi bütövlüyü çərçivəsində yarana biləcəyini söyləmişdir. Elə həmin il Fərda Əsədov, Rauf Talışınski ilə birlikdə Yerevana gedərək Dağlıq Qarabağda Soros fondunun açılmasına etiraz etmişdir. 2009-cu ildə isə Dr. Adil Bağırov və Dr. John Vafai ilə birlikdə Washington şəhərində Qarabağ Fondu təsis etmiş və 2015-ci ilə qədər müxtəlif elmi mədəni programlar həyata keçirmişdir. Müəllif “Yazıq Balayan” başlığı altında Zori Balayanın 2013-cü ildə Rusya prezidenti Vladimir Putinə göndərdiyi məktubu şərh edərək Balayanın heç bir məntiqə sığmayan ifrat yalanlarına və azərbaycanlılara qarşı nifrət və kin söyləmlərinə təəssüf hissi ilə gülür.

### 2.5. Altıncı Qrup: İkinci Qarabağ Müharibəsi və Sonrakı Mərhələ

*Qarabağ münaqişəsi. Kim nə düşündü, nə etdi?*

*2-ci Qarabağ savaşı. Qarabağ-Qordi düyünü*

*Nə etməli? Yolumuz hayanadır?*

Birinci Qarabağ Müharibəsindən sonra problemin həllində üç əsas tərəfin — Azərbaycan, Ermənistan və beynəlxalq ictimaiyyətin — iştirak etdiyi, lakin hər birinin məsələyə fərqli yanaşdığı görünür. Azərbaycan mərhələli həlli qəbul etsə də, erməni liderləri "Böyük Ermənistan" ideyası naminə real davranmamış, Minsk Qrupu və böyük dövlətlər də Ermənistana təzyiq göstərməmiş, əksinə prosesi uzatmağa xidmət etmişlər ki, bu işdə erməni diasporunun güclü lobbi fəaliyyətlərinin də rol oynadığı ortaya çıxır. Azərbaycan isə işğalla heç vaxt barışmamış, müharibədən sonrakı dövrdə güclü iqtisadi inkişaf mərhələsi yaşamış, bu inkişaf həm milli özünəinamı, həm də Qarabağ problemini həll etmək qərarlılığını artırmışdır. Prezident İlham Əliyev əvvəlcə problemin sülh yolu ilə həllini istədiyini, lakin danışıqlardan nəticə alınmayacağı təqdirdə hərbi seçimin gündəmə gələcəyini açıq şəkildə bəyan edirdi. Azərbaycan uzun illər ərzində iqtisadiyyatını, ordusunu və diplomatik imkanlarını gücləndirərək 2016-cı ilin Aprel döyüşlərində bu güc dəyişikliyini dünyaya nümayiş etdirdi. Müəllif Qarabağ düyününü Qordi düyünü misalı ilə izah edir: əvvəlcə "əl ilə" açmağa çalışıldı, alınmadıqda isə "dəmir yumruq" — yəni hərbi əməliyyat — vasitəsilə düyün kəsildi. 2020-ci ildə başlayan İkinci Qarabağ Müharibəsində Azərbaycan ordusu üstünlük qazandı və 9–10 noyabr tarixlərində Azərbaycan, Ermənistan və Rusiya liderləri atəşkəs və müharibədən sonrakı nizamlanmanı nəzərdə tutan üçtərəfli bəyanat imzaladılar. Məqsəd işğala son qoymaq və mümkün olan ən az itki ilə ədaləti bərpa etmək idi.

Əsərin sonunda müəllif həm azərbaycanlılara, həm də ermənilərə sülh çağırışı edir. Uzun illər davam edən düşmənçiliyin hər iki xalqa zərər verdiyini, nifrətin araya divar deyil, körpü salmaqla aşılmalı olduğunu vurğulayır. Onun fikrincə, birbaşa və vasitəçisiz ikitərəfli görüşmələrin vaxtı çatmışdır. Həmçinin müəllif münaqişənin dini xarakter daşımadığını, Azərbaycan xalqının heç vaxt terrora əl atmadığını xatırladır.

## 3. NƏTİCƏ

*"Mənim Qarabağım və ya Qarabağ Düyünü"* əsəri Qarabağ həqiqətlərini həm tarixi, həm də xalq yaddaşının prizmasından təqdim edərək çoxqatlı bir mənzərə yaradır. Müəllif Qarabağı Azərbaycan mədəniyyətinin və mənəvi kimliyinin bünövrəsi kimi dəyərləndirir və Şuşanın bu kimlikdəki əvəzsiz yerini xüsusi vurğulayır. Kitabda ermənilərin Azərbaycan ədəbiyyatı, musiqisi və teatrındakı fəaliyyətləri obyektiv şəkildə təhlil edilməklə tarixi münasibətlərin mürəkkəbliyi ortaya qoyulur. XIX–XX əsr mənbələrinə əsaslanaraq Qafqazda etnik dəyişmələr, ermənilərin köçürülməsi və bu proseslərin siyasi nəticələri elmi əsaslarla izah edilir. Eyni zamanda "Erməni məsələsi"nin mahiyyəti, imperiya siyasətlərinin bölgədə yaratdığı gərginlik və uzunmüddətli fəsadları göstərilir; Sovet dönəmində həyata keçirilən məqsədyönlü siyasət və separatizmi təşviq edilməsiylə münaqişəni dərinləşdirdiyi vurğulanır.

Birinci Qarabağ Müharibəsindən sonra Ermənistanın qeyri-real iddiaları və beynəlxalq vasitəçilərin təsirsizliyi sülh prosesinin uzanmasına səbəb olmuş, Azərbaycan atəşkəs dönəmindən düzgün şəkildə faydalanaraq daha güclü olmaq və öz haqqını bərpa etmək yönündə qətiyyətli addımlar atmışdır. Əsərdə İkinci Qarabağ Müharibəsi Azərbaycan dövlətinin siyasi iradəsinin, hərbi gücünün və milli birliyinin nəticəsi olaraq tarixi ədalətin bərpasını təmin edən dönüş nöqtəsi kimi dəyərləndirilir. Müəllif tərəfsizlik prinsipinə sadiq qalaraq ermənilərin tarixini və apardıqları siyasəti Qərb və erməni mənbələrinə əsaslanaraq təqdim edir. Əsərin sonunda müəllifin irəli sürdüyü sülh çağırışı uzunmüddətli düşmənçiliyin hər iki xalqa zərər vurduğunu xatırladır və gələcəyin yalnız dialoq, qarşılıqlı anlaşma və vasitəçisiz birbaşa təmaslar əsasında mümkün ola biləcəyini göstərir. Bu baxımdan, kitab oxucunu həm keçmişi düzgün anlamağa, həm bu gündən nəticə çıxarmağa, həm də gələcək üçün daha ədalətli və sabit bir bölgə təsəvvür etməyə sövq edir.

Hamlet İsaxanlının səmimi dil və mütəvazi üslubu ilə anlatdığı bilgi və təcrübəni birləşdirən əsər, Ermənistan–Azərbaycan münasibətləri və Qarabağ problemi baxımından dəyərli bir istinad mənbəyidir.

## ƏDƏBİYYAT

İsaxanlı, H. (2022). *Mənim Qarabağım və ya Qarabağ Düyünü*, Xəzər Univesiteti Nəşriyyatı, 242 səh.